


# İLLİK HESABAT

**Şəhla Qarayeva Təqaüd Proqramı 2024**

www.sgsp.info

# BU GÜN ŞQTP

## 142 TƏQAÜD

Şəhla Qarayeva Təqaüd Proqramı 2018-ci ildən etibarən Azərbaycanda az təminatlı və təhsilə çıxışı məhdud olan qızların təhsil imkanlarını genişləndirmək üçün fəaliyyət göstərir. Hər il proqram müəyyən müddət ərzində ərizə qəbulunu açıq elan edir və bu proses çərçivəsində gənc qızlara maliyyə yardımı ilə yanaşı mentorluq dəstəyi də təqdim olunur.
Təqaüd proqramının təsis olunduğu 2018-ci ildən bəri təqaüdçülərin sayı davamlı şəkildə artmaqdadır. Cari ildə ŞQTP çərçivəsində **30 tələbəyə 800 ABŞ dollarına qədər** maliyyə yardımı ayrılmışdır. Bundan əlavə, proqramın fəaliyyətində yeni bir mərhələ kimi, ilk dəfə olaraq **4 tələbənin tam bir illik təhsil haqqı** tam şəkildə qarşılanmışdır.








# ƏRİZƏ QƏBULU

Bu dövr ərzində ümumilikdə 332 müraciət qəbul olunmuşdur. Lakin, uyğunluq şərtlərinə cavab verməyən 12 ərizəçi (kişi namizədlər, natamam və ya düzgün doldurulmamış ərizə formaları) ilkin seçim mərhələsində prosesdən kənarlaşdırılmışdır. ŞQTP-yə müraciət etmək üçün əsas tələblərdən biri Azərbaycanda yaşayan qadın tələbə olmaqdır.







Bu müddət ərzində ümumilikdə 320 müraciət nəzərdən keçirilib. Müraciət edənlərin təqaüd proqramına qatılmaq motivasiyası onların fərdi ehtiyaclarından asılı olaraq dəyişir. Diagramda göstərildiyi kimi, əksər müraciətçilər təhsillərini davam etdirmək, şəxsi ehtiyaclarını qarşılamaq və ya fərdi inkişaflarına dəstək almaq üçün—məsələn, dil kursları, ixtisas artırma və magistraturaya hazırlıq məqsədilə—təqaüd proqramına müraciət ediblər.

# SEÇİM PROSESİ

Ərizəçilərin seçim prosesi üç mərhələdə aparıldı: 1) İlkin baxış; 2) Tərəfdaşların qiymətləndirməsi; 3) Müsahibə. Seçim mərhələsinin hər bir mərhələsi aşağıda daha ətraflı izah olunub.

1) **İlkin baxış**
Bu mərhələdə SQTP Layihə Komandası 320 müraciəti diqqətlə qiymətləndirdi və onları ehtiyac səviyyələrinə əsasən üç qrupa - ən yüksək, orta və ən aşağı kateqoriyalara ayırdı. Ehtiyacın müəyyənləşdirilməsi müraciətlərdə nümayiş etdirilən sosial-iqtisadi göstəricilərə əsaslanıb. İlkin baxışdan sonra **192 ərizəçi** növbəti mərhələyə keçib.



**2) Tərəfdaşların qiymətləndirməsi**
ŞQTP-nın iki sadiq tərəfdarı təqaüdçülərin anonimləşdirilmiş ərizələrindəki qısa cavab esselərinə baxış keçirib aşağıdakı iki meyar əsasında: a) ən yüksək ehtiyac və b) gələcək haqqında məqsədlərin aydınlığı üzrə qiymətləndirmə apardılar. Bu mərhələnin sonunda ŞQTP Layihə Komandası, müsahibə mərhələsinə keçən **97 finalisti** müəyyənləşdirdi.

**3) Müsahibə**
ŞQTP ehtiyaca əsaslanan təqaüd proqramı olduğundan, təqaüd fondunun tələbələrin ehtiyaclarına nə qədər uyğun olduğunu araşdırmaq məqsədi ilə fərdi telefon/onlayn müsahibələr aparıldı. Bu mərhələdə ŞQTP Layihə Komandasının məqsədi hər bir finalist ilə daha yaxından tanış olmaq və ərizə formasında olmayan sualları verməkdən ibarət idi. Diqqətli müzakirələr əsasında səkkiz günlük müsahibə prosesinin sonunda **34 təqaüdçü** seçildi.

Bu il ilk dəfə olaraq **4 nəfər ilk nəsil tələbə** statusu olan və pedaqoji ixtisaslarda təhsil alan təqaüdçülər tam bir illik təhsil haqqını qarşılayan təqaüdlərlə təltif olundular. **İlk nəsil tələbə** ailəsində ali təhsilə çıxışı olan birinci şəxsdir. Tədqiqatlar göstərir ki, bu qrup tələbələrin ali təhsil mühitinə uyğunlaşmağında xüsusi çətinlikləri olur. Bunu nəzərə alaraq, ŞQTP Layihə Komandası az təminatlı ailələrdən olan 4 nəfəri **"İlk Nəsil Tələbə" təqaüdü** ilə mükafatlandırdı.

# MENTORLUQ PROQRAMI

ŞQTP Mentorluq Proqramı, təqaüdçülərin inkişafını və irəliləməsini təşviq etməyə həsr olunmuş intensiv 3 aylıq bir təşəbbüsdür. Bu proqram, fərqli sahələrdən olan mentorları könüllü əsaslarda cəlb edərək, təqaüd qazanan gənc qızlara mənalı rəhbərlik və dəstək təmin edir, onlara şəxsi və peşəkar həyatlarındakı qərarlarını gücləndirməyə kömək edir.

Mentorluq proqramı çox faydalı olduğunu sübut etmişdir, çünki hər il bir çox uğurlu hekayələr qeydə alınır. Təqaüdçülər, mentorluq əlaqələri vasitəsilə daha çox gücləndiklərini, özlərinə daha çox inam qazandıqlarını və gələcək karyeraları üçün qərar vermə bacarıqlarının inkişaf etdiyini bildiriblər. Mentorluğun gedişatı proqramın davamlı olaraq müsbət təsirli olması məqsədi ilə müntəzəm olaraq izlənir. Şəxsi inkişafdan əlavə, proqram, təqaüdçüləri ŞQTP Proqramının inkişaf etməkdə olan şəbəkəsində iştirak etməyə təşviq edərək, aralarındakı icma hissini gücləndirir. Bu şəbəkə, davamlı əməkdaşlıq, peşəkar inkişaf və davamlı dəstək üçün bir resurs kimi xidmət edir.

Bu il, **20-ə qədər təqaüdçü 3 aylıq mentorluq proqramında** iştirak edib.



ŞQTP, təqaüdçülərin artan dəstək ehtiyacını nəzərə alaraq, 2025-ci ildən Violette Mentorluq Proqramı ilə əməkdaşlığa başlayır. İki gənc tərəfindən yaradılan bu proqram gənc qadınları dəstəkləmək və müsbət dəyişikliklərə töhfə vermək məqsədi daşıyır. Onların vizyonu ŞQTP-nin dəyərləri ilə tam uyğundur. Ətraflı məlumat üçün Instagram səhifələrini ziyarət edə bilərsiniz: Violette Mentorluq.

# ƏMƏKDAŞLIQLAR




**Azərbaycan Mədəniyyət Cəmiyyəti Şimali Kaliforniya və "For Azerbaijan" Fondu** ilə tərəfdaşlığımızı bu il də davam etdirdik. Hər iki qeyri-kommersiya təşkilatı bizə təqaüdlər üçün daha çox vəsait toplamağa və təqaüdçülərimiz üçün daha yaxşı proqramlaşdırma həyata keçirməyə kömək edən təşkilati və fandreyzinq dəstəyi verdi.

Tərəfdaşlarımıza 2024-cü ilin daha bir uğurlu il olması üçün göstərdikləri vaxt və səylərə görə minnətdarlığımızı bildirmək istərdik!

FOR AZERBAIJAN
LEAVE YOUR MARK

Azerbaijan Cultural Society-Northern California
ACS
NC




# TƏQAÜDÇÜLƏRLƏ GÖRÜŞ

ŞQTP 2018-ci ildən fəaliyyət göstərməsinə baxmayaraq, bütün kraudfandinq kampaniyalarını və seçim prosesini tamamilə onlayn şəkildə həyata keçirir. Fəaliyyətimiz ərzində cəmi iki dəfə əvvəlki illərin təqaüdçüləri ilə fiziki görüş təşkil etmək mümkün olmuşdur.

Bu il isə, 15 mart 2024-cü il tarixində, təqaüdçülərimiz və əməkdaş təşkilatlarla yenidən bir araya gəlməyə nail olduq. Görüşün əsas məqsədi təqaüdçülərin bir-biri ilə tanış olması, təcrübə mübadiləsi aparması və eyni zamanda onları yeni proqram və imkanlar haqqında məlumatlandırmaq idi.

Görüşdə ACSNC, For Azerbaijan və Dentons kimi əməkdaş təşkilatların nümayəndələri də iştirak etdilər. İnanırıq ki, təqaüdçülər bir-birləri ilə tanış olduqca, təcrübələrini bölüşdükcə və öyrəndikcə, Azərbaycanda təhsili, xüsusilə də qızların təhsilini dəstəkləyən güclü bir cəmiyyət formalaşdırmaq mümkündür.

Şəhla Qarayeva Təqaüd Proqramı gələcəkdə daha çox gənc qızın təhsil imkanlarına çıxışını artırmaq və onların uğur qazanmasına dəstək olmaq üçün fəaliyyətini genişləndirməyi hədəfləyir.








































# ŞQTP 2023 TƏQAÜDÇÜLƏRİ

# NAMİZƏDLƏRLƏ GÖRÜŞ

Bu il ilk dəfə ərizə qəbul prosesi çərçivəsində 21 may tarixində **təqaüdçümüz Zeynəb Səmədovanın təşəbbüsü** ilə 7 saylı ASAN Mərkəzində potensial təqaüdçülərlə görüş təşkil edildi. Təxminən **50-yə yaxın iştirakçının** qatıldığı bu tədbirdə Zeynəb proqramda qazandığı təcrübələrini paylaşdı və iştirakçıların ərizə forması ilə bağlı suallarını ətraflı cavablandırdı. Bu cür görüşlərin gələcəkdə tələbələrin suallarına aydınlıq gətirmək və onların qərarvermə prosesini dəstəkləmək baxımından böyük fayda verəcəyinə inanırıq.






# KRAUDFANDİNQ KAMPANİYASI

ŞQTP 2024 Kraudfandinq Kampaniyası çərçivəsində, Azərbaycandan olan gənc qızların təhsilini dəstəkləmək məqsədilə ACSNC (Azerbaijan Cultural Society Northern California - Azərbaycan Mədəniyyət Cəmiyyəti Şimali Kaliforniya) ilə əməkdaşlıq çərçivəsində ümumilikdə **15,979 ABŞ dolları (47 onlayn ianə)** toplanmışdır.
Bundan əlavə, Almaniyanın Servis Plan və EY Baku kimi korporativ donorların **15,591.86 ABŞ dolları** məbləğində dəstəyi kampaniyamızın imkanlarını daha da genişləndirdi. Ötən illərdə olduğu kimi bu il də anonim donor tərəfindən **8,000 ABŞ dolları** məbləğində ianə təqdim edilmişdir ki, bu da ümumi büdcəmizi **39,570 ABŞ dollarına** yüksəltmişdir. Bu maliyyə dəstəyi ilə **30 tələbəyə t**əhsil xərclərini qarşılamaq imkanı yaratmışıq.

Bizim birgə səylərimiz bu kampaniyanın hüdudlarından kənara çıxdı, uğurlu əməkdaşlıqlar il boyu davam etdi: "For Azerbaijan" Fondunun dəstəyi ilə daha **4 tələbəyə** dəstək ola bildik, və bununla da verilən təqaüdlərin ümumi sayını **34 təqaüdə** çatdırdıq. Aşağıdakı qrafik ianələrin keçirilən kampaniyalar və tərəfdaşlıqlar üzrə bölgüsünü göstərir.



# MALİYYƏ HESABATI 2024

| Gəlir | | |
|---|---|---|
| Kraudfandinq Kampaniyası (Vebsayt) | $ | 15,979.00 |
| Korporativ Ianələr | $ | 15,591.86 |
| Anonim Donor - İanə | $ | 8,000.00 |
| **Cəmi gəlir** | **$** | **39,570.86** |
| **Xərclər** | | |
| İnzibati Xərclər | $ | 1,287.55 |
| Təqaüd Ödənişləri | $ | 19,414.94 |
| | | |
| **Cəmi xərclər** | **$** | **20,702.49** |
| **Ümumi Mənfəət (Zərər)* 2024** | **$** | **18,868.37** |
| **Ümumi Mənfəət (Zərər)* 2020-2023** | **$** | **19,211.74** |
| | | |
| **Cəmi Vəsaitlər** | **$** | **38,080.11** |
| **İnzibati  xərclər/Cəmi gəliir** | | **3%** |
| **Təqaüd Ödənişləri/Cəmi gəlir** | | **49%** |
| **Ümumi Mənfəət (Zərər)/Cəmi gəlir** | | **48%** |

***İnzibati xərclər** platforma ödənişlərini (Stripe, Hosting, G-Suite və transfer haqları) əhatə edir. Qeyd etmək vacibdir ki, komanda tərəfindən görülən bütün işlər könüllülük əsasında həyata keçirilir; pul kompensasiyası nəzərdə tutulmur.
***Ümumi Mənfəət (Zərər)*** növbəti ilin qaliblərinin təqaüdlərini maliyyələşdirmək üçün ayrılacaqdır.
***Gəlir və xərclər 30 dekabr 2024-cü il tarixinədək hesablanır***




# SUALINIZ VAR?

Bizə yazın:
**mail@sgsp.info**